Azarbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya Institutu Oğuzun Kərimli kəndinin Qazi adlanan ərazisindəki 2 saylı kurqanda apardığı qazıntılar zamanı yeni arxeoloji tapıntılar üzə çıxarıb.



# Nadir tapıntı

## Oğuzda qədim Azərbaycan dövlətinin qalıqları aşkarlanıb

**Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyasının rəisi Nəsib Muxtarov bildirir ki, bu kurqanda 12 metr uzunluğunda böyük dəfn çalası tapılıb: "Bu dəfn çalası əvvəlki kurqanlarda tapılan dəfn çalasından böyüklüyü və dərinliyi ilə seçilir. Burada dəfn çalasının həm üstünü örtəndə, həm də içində - dəfn prosesi zamanı çox böyük tonqal yandırılıb.**

Burada keramika parçaları və mis qırıqlarının da aşkarlanması onu göstərir ki, biz çox maraqlı dəfn adəti ilə rastlaşmışıq. Kurqanda rastlaşdığımız dəfn mərasimi, əldə olunan qabların sınıqları, qabların naxışları bütün bunların hamısı onu göstərir ki, tapıntılar təkcə Azərbaycan deyil, Qafqazın arxeologiyası üçün də yenidir.

Bu nümunələrlə yanaşı, həmin kurqandan 180 metr aralıda yerləşən digər kurqanda aşkarlanan muncuqlar, əntiq əşyalar Azərbaycanın həmin dövrdə uzaq Hindistan, Çin, Aralıq dənizi hövzəsi ölkələri ilə yüksək səviyyəli əlaqə saxladığını göstərir".

Bu mənada 2 saylı kurqan Azərbaycan tarixi üçün çox böyük əhəmiyyət kəsb edir. Belə ki, kurqanda tapılan nümunələr e.ə. XVI-XV əsrə aiddir.

Nümunələrin konkret kimlərə aid olduğu hələ tam müəyyənləşdirilməsə də, əldə olunan materialların əksəriyyəti onların məhz yerli sənətkarlar tərəfindən hazırlandığını göstərir:

**"Biz həmin dövrdə ön Asiyadakı sivilizasiyanın mərkəzinə daxil olan bir ərazidə yaşayırıq, yəni əcdadlarımız həmin ərazidə məskunlaşıblar. Güman edirəm ki, 1 və 2 saylı kurqanda adını bilmədiyimiz, amma e.ə. ikinci minilliyin birinci yarısında mövcud olmuş çox güclü Azərbaycan dövlətinin izləri ilə rastlaşmışıq. Bu nümunələrlə biz böyük bir sivilizasiyanı açırıq..."**